

■ Məhəmməd TURAN

## QALANMAMIŞ TONQAL

Boynu bükük qalıb bu boz tonqalın,
Başına fırlanan bir kəsi yoxdu...
Bütün çıl-çırpısı alovdan yalın,
Tonqalın qırmızı çöhrəsi yoxdu...

Neçin yaddan çıxıb görəsən, Allah,
Ümidi alışan bu tənha tonqal?
Eh, külü sovrulub öz ürəyinə
Danışmır... ağlıyır... lap sakitcə lal...

Hanı bu tonqalı quran yiyəsi?
Bayram nəşəsindən qaçaqmı yoxsa?
Vallah bağışlamaz QURAN YİYƏSİ,
İnsan bu bayramı kinində boğsa...

Bəlkə də ürəyi yandı tonqalın
İldırım səsiydi amanı ünü!
Elə bu tonqalın göz yaşlarıymış -
Buluddan töküldü bu bayram günü.

## YOXLUĞUN YAXIN MƏNƏ...

Həsrətin yeddi arşın,
Yoxluğun yaxın mənə.
Bir eşq duasına dön
Astaca oxun mənə.

Mən yorardım yolları
Bu dərd məni yormasa...
Arada zəng et barı
Sevinim heç olmasa...

Həsrətindən tutuşar.
Yanar ağzımda dilim...
Yenə küsülü qaldıq
Heyf getdi bir ilim...

Məni yuxuda görsən
Balıncını tərs çevir...
Nə olaydı gözlərin
Deyəydi ”səni sevir”...

## SEVİNDİ

Bir yarpaq saraldı, düşdü budaqdan
Bir ümid ağladı, torpaq sevindi...
Fələk seçəmmədi qaranı ağdan,
Dilimdən sürüşdü bir ”ah”, sevindi...

Yaman səkdim a dost, boranda-qarda
Adicə bir dərd də gəlir div indi.
Eşqimi  itirdim dolayılarda
Qoçaqsan, bir gözəl tap da sev indi!
Həyatın sərt üzü, daş-qayadan sərt,
Üşüsən, ürəyim isti evindi!
Tanrıdan gəl umma-küsmə Məhəmməd,
Bax sovqat göndərdi, sevil, sev indi!

## ŞEİR SEVGİLİM

Məndən şeir istəmə
Ay gülüm, ay çiçəyim...
Min dəstə gülə dəyən
Mənim bircə ləçəyim...
Sənə şeir yazmaq, gülüm,
Şeirə nəzirə yazmaqdı...
Sənə səndən gözəl şeir
Xəyal-xülyada azmaqdı...
Sənə şeir yazmaram mən
Günahdı, vallah, günahdı!
Allahla bəhsəmi girim?
Sən tək şeiri o yaratdı!